UOT: 911.3:338.45(479.24)
https://doi.org/10.59849/2409-4838.2026.1.122

# AZƏRBAYCANDA SƏNAYE ƏRAZİLƏRİNİN TƏŞKİLİ VƏ REGİONAL İQTİSADİ İNKİŞAFIN PRİORİTET İSTİQAMƏTLƏRİ

**Ramiz Mirmahmud oğlu Quliyev*, Mirmahmud Ramiz oğlu Quliyev**
Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, Azərbaycan
*rquliyev2018@gmail.com

*Sənaye təsərrüfatı ölkə iqtisadiyyatının mühüm sahəsi olub, maddi məhsullar istehsalında aparıcı yer tutur. Sənaye təsərrüfatının inkişaf səviyyəsi iqtisadi məkanın təbii-coğrafi şəraitləri, təbii ehtiyatlarla təminat dərəcəsi, habelə digər sosial-iqtisadi amillərin təsiri altında formalaşır. Apardığımız tədqiqatlarla müəyyənləşdirilmişdir ki, Dağlıq Şirvan iqtisadi rayonunun sənaye potensialı yüksək deyildir. Bölgədə sənayenin inkişafını şərtləndirən vacib amillərdən biri kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin mövcudluğudur.*

*Məqalədə Dağlıq Şirvan iqtisadi rayonunun sənaye məhsulları istehsalında rolunun artırılması, mövcud təbii-iqtisadi imkanlardan səmərəli istifadə edilməsi məqsədilə üzümçülük, meyvəçilik, bostançılıq-tərəvəzçilik məhsullarının emalı üzrə yeni müəssisələrin yaradılması və ya mövcudlarının genişləndirilməsi imkanları tədqiq olunur. Məqalədə həmçinin kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin xammal ilə təminatı yolları araşdırılır, regionda sənayenin inkişafına təkan verə biləcək digər zəruri tədbirlər müəyyənləşdirilir.*

***Açar sözlər:*** *sənaye ərazilərinin təşkili, iqtisadi rayon, hasilat sənayesi, emal sənayesi, sənaye potensialı, sənaye müəssisələri, təbii-iqtisadi potensial, sənaye məhsulları istehsalı.*

## GİRİŞ

Sənaye, ölkə iqtisadiyyatının aparıcı sahəsi kimi təbii-coğrafi şəraitin və təbii ehtiyatların iqtisadi dövriyyəyə cəlb olunmasında, istehsal qüvvələrinin məkan üzrə yerləşdirilməsində və nəticə etibarı ilə ərazilərin planlaşdırılmasında həlledici rol oynayır. Sənaye, mühüm şəhərsalma amili olaraq, şəhər və qəsəbələrin, habelə iri kənd yaşayış məntəqələrinin iqtisadi-coğrafi strukturunun təşkilinə, əhalinin məşğulluq səviyyəsinə və regional gəlirlərin formalaşmasına bilavasitə təsir göstərir.

Sənaye müəssisələrinin mövcudluğu şəraitində yaşayış məntəqələri arasında kooperasiya əlaqələri genişlənir, ətraf ərazilərin inkişafı üçün münbit şərait formalaşır, əhalinin məşğulluq probleminin həllinə geniş imkanlar yaranır.

Dağlıq Şirvan regionunun iqtisadiyyatı uzun illər Azərbaycanın təsərrüfat strukturunda üzümçülük, taxılçılıq, heyvandarlıq məhsullarının istehsalı və emalı ilə xarakterizə olunmuşdur. Bu iqtisadi rayon 20-ci əsrin 70-80-ci illərində ölkənin mühüm üzümçülük regionu kimi tanınmışdır. Ona görə də burada fəaliyyət göstərən əksər təsərrüfatların əsas ixtisaslaşma istiqaməti kənd təsərrüfatı məhsullarının ilkin emalı və şərab istehsalı olmuşdur. O illərdə bu sahələrin normal fəaliyyət göstərməsi üçün zəruri infrastruktur şəbəkəsi formalaşdırılmışdı.

Keçən əsrdə 80-ci illərin sonundan başlayaraq keçmiş sovetlər məkanında sosialist iqtisadi münasibətlərinin iflası Azərbaycandan da yan keçmədi .Sovetlər dönəmində formalaşmış iqtisadi potensial heçə endirildi. Min hektarlarla üzüm plantasiyaları ləğv edildi, iri heyvandarlıq kompleksləri, zavodlar, fabriklər öz fəaliyyətlərini dayandırmış oldular.

Hazırda Dağlıq Şirvan iqtisadi rayonunun ölkə sənayesinin strukturundakı əhəmiyyətli rolunun bərpası məqsədilə bir sıra iqtisadi tədbirlərin həyata keçirilməsinə zərurət yaranmışdır.

Bütövlükdə Azərbaycanda, o cümlədən Dağlıq Şirvan iqtisadi rayonunda, müstəqillik illərində aparılan iqtisadi islahatlar əvvəllər mövcud olmuş sənaye sahələrinin tam bərpasına imkan verməsə də, ilk zamanlarda yeni istehsalat sahələri yaradıldı, bu sahələr üzrə istehsal müəssisələri təşkil edildi. Lakin bir neçə ildən

sonra xammal, yarımfabrikat, ehtiyat hissələri ilə təminatdakı çətinliklərlə əlaqədar olaraq onların bəzilərinin fəaliyyətləri dayandırılmış oldu.

Ölkənin əksər iqtisadi rayonları və onlara daxil olan inzibati rayonlar kimi, Dağlıq Şirvanda da sənaye monostruktur quruluşa malikdir. Həm iqtisadi rayonda, həm də ayrı-ayrı inzibati rayonlarda sənaye məhsulları istehsalının əsas hissəsi bir sahənin və bura daxil olan bir müəssisənin payına düşür və uzun illərdir ki,bu proses belə də davam edir.

Regionlarda aparılan iqtisadi islahatlar prosesində sənayenin dar istiqamətlər üzrə ixtisaslaşması hallarını aradan qaldırmaq, istehsalat sahələrinin genişləndirilməsinə diqqətin artırılması vacib vəzifə kimi müəyyən edilməlidir. Bunun üçün sənayenin şaxələnməsi məqsədi ilə ayrı-ayrı sahələrə aid olan istehsal və xidmət sahələrinin təşkili üçün ciddi işlər görülməlidir. Yerlərdə mövcud olan təbii-iqtisadi və demoqrafik potensialdan, o cümlədən əhalinin əmək vərdişləri və ixtisaslı kadrlardan istifadə edilməsinə əsaslanan təsərrüfat obyektlərinin yaradılması vacib məsələlərdəndir. Bu sahədə həyata keçirilən tədbirlər, regionların sosial-iqtisadi və demoqrafik inkişafını təmin etməklə bərabər, onların ölkə iqtisadiyyatında payının da artmasına şərait yaratmış olar.

Regionların sosial-iqtisadi və demoqrafik inkişafının təmin edilməsi üçün həyata keçirilən tədbirlər sistemində ərazinin sosial-iqtisadi və demoqrafik şəraitlərinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Məqalənin hazırlanmasında məqsəd Azərbaycan Respublikasının Dağlıq Şirvan regionunun sənaye iqtisadiyyatında sahə və ərazi təşkilinin müasir vəziyyətini tədqiq etmək, regionun təbii-iqtisadi və təbii ehtiyat imkanlarını öyrənmək, mövcud problemləri, regiondaxili ərazi və istehsal xüsusiyyətlərini araşdırmaq, sənayenin səmərəli ərazi təşkilinə, yerli potensialdan düzgün istifadəyə və təsərrüfat dövriyyəsinə yeni resursların cəlbinə dair təklif və tövsiyələrin işlənməsindən ibarətdir.

## MATERİAL VƏ METODLAR

Tədqiqat obyekti kimi Dağlıq Şirvan iqtisadi rayonu seçilmişdir. Tədqiqat obyekti Azərbaycanın şərq hissəsində, Böyük Qafqaz dağlarının cənub-şərq kənarlarında və Qobustan alçaq dağlığında yerləşir. İqtisadi rayon şərqdə Abşeron-Xızı, şimalda Quba-Xaçmaz, şimal-qərbdə Şəki-Zaqatala, cənub və cənub-qərbdə Mərkəzi Aran, Şirvan-Salyan iqtisadi rayonları ilə həmsərhəddir [6, s. 146]. Dağlıq Şirvan iqtisadi rayonu əlverişli iqtisadi-coğrafi mövqeyə və inkişaf etmiş nəqliyyat infrastrukturu şəbəkəsinə malikdir. Bakı şəhəri və Abşeron regionundan ölkənin digər iqtisadi rayonlarına gedən avtomobil yolları onun ərazisindən keçir. İqtisadi rayonun tərkibinə Ağsu, İsmayıllı, Qobustan və Şamaxı inzibati rayonları daxildir. Sahəsi 6,13 min $km^2$, əhalisinin sayı 2025-ci ilin əvvəli üçün 322,5 min nəfərdir [2, s. 65]. Ölkə ərazisinin 7,08%-i, əhalisinin 3,15%-i iqtisadi rayonun payına düşür. Regionda şəhər əhalisinin sayı 112,2 min nəfər və ya 34,8%, kənd əhalisinin sayı 210,4 min nəfərdir (65,2%). İqtisadi rayonda 4 şəhər, 8 qəsəbə, 272 kənd yaşayış məntəqəsi mövcuddur [3, s. 70].

Dağlıq Şirvan iqtisadi rayonu ölkənin təsərrüfat strukturunda kənd təsərrüfatı məhsullarının istehsalı ilə xüsusi yükə malikdir. Onun əsas sahələrinə taxılçılıq, üzümçülük, meyvəçilik, bostan-tərəvəz məhsullarının istehsalı aiddir. İqtisadi rayona aid edilən bütün inzibati rayonlarda heyvandarlıqla da məşğul olunur [31]. Sənaye sahələri əsasən regionda becərilən kənd təsərrüfatı məhsullarının emalına, mineral-tikinti xammallarının hasilatına əsaslanır.

Məqalənin yazılması prosesində təhlillərin aparılması üçün riyazi-statistika, müqayisə, kartoqrafik, tarixi-coğrafi yanaşma metodlarından istifadə edilmişdir.

Aparılan tədqiqatlar prosesində Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sənaye, regionların inkişafı, əhali, əmək ehtiyatları üzrə dövri statistik materiallarından baza istinad mənbələri kimi istifadə edilmiş [2, 3, 11-16, 17-22], sənayenin öyrənilməsi sahəsində elmi əsərlər, dövlət proqramlarında verilən elmi-metodiki və elmi-nəzəri müddəalar elmi əsas kimi qəbul edilmişdir [7, 8, 9, 23]. Son dövrlərdə ölkənin regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı, “Azərbaycan- 2020” və “Azərbaycan -2030” [23], “Strateji Yol Xəritəsi” [8, 9], “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı “ qəbul edilmiş [7], onların çoxu müvəffəqiyyətlə yerinə yetirilmişdir. Məqalənin hazırlanmasında onların müddəaları və yerinə yetirilən nəticələr iqtisadi-coğrafi baza kimi nəzərə alınmışdır.

**NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ**

Azərbaycanda sənayenin sahə və ərazi strukturunun, onun regional xüsusiyyətlərinin öyrənilməsi sahəsində tədqiqatlar XX əsrin ikinci yarısından sonra, xüsusilə 1970-1980-ci illərdən başlayaraq aparılır. Bu sahədə aparılan tədqiqat işlərinin nəticələri S.K.Hüseynov [33], Ə.X.Nuriyev [30], Ə.M.Hacızadə [32], R.H.Məmmədov [28], N.N.Allahverdiyev [1], Z.Ə.Səmədzadə [34] kimi alimlərin əsərlərində əks olunur. Bu əsərlərdə sənayenin inkişafı üçün mövcud olan təbii-coğrafi potensial, təbii ehtiyatlar, onların istifadə edilməsi imkanları, regionlarda sənaye potensialının yaradılmasının əhəmiyyəti və yerləşməsi xüsusiyyətləri tədqiq edilmişdir.

Müstəqilliyin ilk illərindən başlayaraq həm ümumrespublika, həm də regional miqyasda sənayenin sahə və ərazi strukturunun, onun regional xüsusiyyətlərinin öyrənilməsi məqsədi ilə Z.N.Eminov [6, 25, 31], Z.T.İmrani [27], N.H.Əyyubov [31], V.Ə.Əfəndiyev [26] tərəfindən geniş tədqiqat işləri aparılmışdır. Bəzi tədqiqat işlərinin nəticələri "Azərbaycan Respublikasının coğrafiyası" (II və III cildlər) [5, 6], "Naxçıvan Muxtar Respublikasının coğrafiyası"(II cild) [29] kimi kollektiv monoqrafiyalarda öz əksini tapıb.

Alimlərdən G.Ağakişiyeva, Z.N.Eminov [6, 25] Dağlıq Şirvan iqtisadi rayonunun təbii-coğrafi şəraitlərini tədqiq etmiş, təbii ehtiyatların qiymətləndirilməsini aparmış, təsərrüfat sahələri, demoqrafik potensialın yerləşməsi xüsusiyyətlərini müəyyən etmiş, tarixi-coğrafi inkişaf mərhələlərinin təhlilini aparmışlar.

2023-cü ildə iqtisadi rayonda iqtisadiyyatın əsas sahələri üzrə 1313,2 mln. manatlıq məhsul istehsal edilmişdir ki,[22, s. 87] bu da iqtisadi rayonun ölkədə payının 1,07% həcmində olması deməkdir [24]. Bu sahədə sənaye məhsulları istehsalının dəyəri 112,5 mln. manat, kənd təsərrüfatı məhsullarının istehsalı 537,3 mln. manat olmuşdur. Dağlıq Şirvanın ölkənin sənaye məhsulları istehsalında payı cəmi 0,17%, kənd təsərrüfatı məhsulları istehsalında isə payı 4,22% olmuşdur [22, s. 12-14; 24, s. 20-21].

Statistik göstəricilərin təhlilindən göründüyü kimi iqtisadi rayonun ölkənin istehsalat strukturunda, onun aparıcı sahəsi olan sənaye və kənd təsərrüfatı məhsullarının istehsalında payı böyük deyildir. Sənayedə istehsalat göstəricilərinin yüksəldilməsi üçün burada iqtisadi islahatların dairəsinin genişləndirilməsi, regionun təbii-iqtisadi və demoqrafik potensialından daha səmərəli istifadə edilməsi zəruri hesab edilir.

Hazırda Dağlıq Şirvan iqtisadi rayonunun iqtisadi potensialı zəif, ölkənin istehsalat strukturunda payı hələ də aşağıdır. Kənd təsərrüfatının intensiv inkişafı və bunun əsasında emal sənayesi müəssisələrinin imkanlarının genişləndirilməsi region iqtisadiyyatının əsas yüksəliş mənbəyinə çevrilməlidir. Aparılan iqtisadi islahatlara baxmayaraq sənaye sahələrində istehsal edilən məhsulların dəyəri azdır, bu müəssisələrdə mövcud olan iş yerləri mövcud demoqrafik potensialdan xeyli geri qalır.

Yaxın gələcəkdə iqtisadi rayonda sənayenin inkişaf səviyyəsinin artırılması üçün daha geniş miqyaslı tədbirlər həyata keçirilməli, bu sahəyə dövlət dəstəyi artırılmalı, iş adamlarının şəxsi maliyyə imkanlarının cəlb edilməsi stimullaşdırılmalı , həyata keçirilən tədbirlər elmi -tədqiqat işlərinin nəticələrinə əsaslanmalıdır.

**Dağlıq Şirvan iqtisadi rayonunda sənaye inkişafının təbii-iqtisadi imkanları**

Dağlıq Şirvan iqtisadi rayonu əhalinin yerləşməsi və təsərrüfat sahələrinin səmərəli ərazi təşkili üçün əlverişli təbii-coğrafi şəraitə, bol günəş enerjisi ehtiyatlarına, orta səviyyədə təmin edilmiş su və torpaq ehtiyatlarına malikdir. İqtisadi rayonun faydalı qazıntılarla təminat səviyyəsi yox dərəcəsindədir [6]. Çayların yataqlarında qum-çınqıl ehtiyatları, tikinti daşı (əhəng daşı), mineral bulaqlar, meşə, iqlim-balneoloji ehtiyatlar mövcuddur. Ona görə də sənaye sahələrinin inkişafı üçün kənd təsərrüfatı məhsullarının emalı, kənardan gətirilən xammallar, yarımfabrikatlardan istifadə böyük önəm kəsb edir.

Eyni zamanda əhalinin və təsərrüfat sahələrinin tələbatını ödəmək üçün yığma maşınqayırma müəssisələri yaratmaq olar və bu istiqamətdə illər öncə müəyyən işlər görülmüşdür. Belə ki, müstəqilliyin ilk illərində iqtisadi rayonun mövcud imkanlarından səmərəli istifadə edilməsi məqsədi ilə kənardan gətirilən ehtiyat hissələrinin (detalların) yığılması yolu ilə minik avtomobilləri, məişət cihazları, televizorlar istehsal edən yığım müəssisələri yaradılsa da, onların fəaliyyəti davamlı olmamışdır.

**Ölkənin sənaye potensialında Dağlıq Şirvan iqtisadi rayonunun rolu**

Dağlıq Şirvan iqtisadi rayonunda sənaye böyük potensiala malik deyildir, onun ayrı-ayrı sahələri üzrə müəssisələr yaradılması imkanları məhduddur. Ona görə də region iqtisadiyyatının sahələri üzrə istehsal edilən məhsulların dəyərində sənayenin payı cəmi 8,57% , kənd təsərrüfatının payı isə 40,92%-dir [22]. Bu baxımdan hesab etmək olar ki, Dağlıq Şirvan kənd təsərrüfatı regionudur və bu sahənin potensialından onun inkişafı üçün səmərəli istifadə edilməsi vacib vəzifələrdəndir.

Dağlıq Şirvan iqtisadi rayonunun ölkə sənayesinin ümumi məhsullarının istehsalında payı çox azdır - cəmi 0,16% təşkil edir (Cədvəl 1). İqtisadi rayonun sənaye məhsulu istehsalında emal sənayesi aparıcı sahə hesab edilsə də, ölkənin sənaye məhsulu istehsalında Dağlıq Şirvan iqtisadi rayonunun payı cəmi 0,42% təşkil edir. İqtisadi rayonda mineral-tikinti xammallarının hasilatı aparılır, lakin onların da həcmi kiçik rəqəmlərlə ifadə olunur (0.04%). Sənaye məhsulları istehsalını xarakterizə etmək üçün Dövlət Statistika Komitəsi tərəfindən elektrik enerji istehsalı və təchizatı, qaz təchizatı sahələrinin illik inkişafına dair göstəricilər hesablanır. Dağlıq Şirvan iqtisadi rayonunun ölkədə bu sahədə payı 0,54% səviyyəsindədir və bunu kiçik hesab etmək olar (Cədvəl 1).

**Cədvəl 1.**

Ölkənin sənaye məhsulu istehsalında iqtisadi rayonun payı, (%-lə)[11-13, 16]

| Göstəricilər | İllər üzrə iqtisadi rayonun payı,%-lə | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2000 | 2010 | 2015 | 2020 | 2023 | 2024 |
| Sənaye məhsulunda payı | 0,01 | 0,04 | 0,07 | 0,22 | 0,17 | 0,16 |
| Mədənçıxarmada payı | - | 0,00 | 0,00 | 0,00 | 0,63 | 0,004 |
| Emal sənayesində payı | 0,00 | 0,04 | 0,09 | 0,54 | 0,48 | 0,42 |
| Elektrik enerji istehsali və təchizatı, qaz təchizatı sahəsində payı | 0,07 | 0,53 | 0,42 | 0,64 | 0,51 | 0,54 |
| Su təchizatı və təmizlənməsi, tullantı emalı sahəsində payı | | 0,98 | 0,72 | 0,84 | 0,86 | 0,80 |
| Sənaye müəssisələrinin say payı | 1,17 | 1,47 | 1,70 | 1,53 | 1,36 | 1,36 |
| Sənaye-istehsal fondlarında payı | 0,45 | 0,14 | 0,16 | - | - | - |
| Sənayedə işçi qüvvəsi üzrə payı | 0,62 | 0,86 | 1,02 | 1,28 | 1,25 | 1,27 |

Eyni zamanda su təchizatı və təmizlənməsi, tullantı emalı sahələri də xüsusi olaraq ayrılır. Dağlıq Şirvanda bu sahədə göstərilən sahələrin dəyəri ölkə miqyasında cəmi 0,80% təşkil edir. Cədvəl 1-dən göründüyü kimi, 2000-ci ildən sonrakı dövrdə sənaye məhsullarının ümumi dəyəri və onun ayrı-ayrı sahələrində istehsal edilən məhsulların dəyərinin ölkədə payı az dəyişmişdir.

2000-ci ildə iqtisadi rayonun payı ölkənin sənaye məhsulları istehsalında cəmi 0,01% təşkil etmişdir. Emal sənayesində məhsul istehsalı yox səviyyəsində olmuşdur, əhaliyə xidmət göstərən elektrik enerji istehsalı, təbii qaz və su təchizatı sahələrinin payı cəmi 0,07% təşkil etmişdir. 2015-ci ilə qədər keçən dövrdə və sonra da bu sahələrin payı vahiddən aşağı olmuşdur, hazırda da belə vəziyyət davam edir.

**Sənayenin müasir ərazi təşkili və regiondaxili xüsusiyyətləri**

Dağlıq Şirvan iqtisadi rayonunda sənaye potensialı zəif olsa da, inzibati rayonlarda onun bəzi sahələri üzrə əsasən daxili tələbatı ödəyən məhsulların istehsalı üzrə müəssisələr fəaliyyət göstərir. Onların əksəriyyətində yerli xammaldan istifadə edilir.

**Cədvəl 2.**

İqtisadi rayonda illər üzrə sənayenin sahə strukturu, faizlə [11-13, 16]

| Sahə strukturu | 2000 | 2010 | 2015 | 2020 | | |
|---|---|---|---|---|---|---|
| Sənaye məhsulu istehsalı,cəmi | **100,00** | **100,00** | **100,00** | **100,00** | **100,00** | **100,0** |
| O cümlədən:<br>1. Mədənçıxarma sənayesi | **-** | **1,1** | **2,2** | **0,4** | **3,0** | **1,4** |
| Daş, qum, çınqıl | - | 1,1 | 2,2 | 0,4 | 3,0 | 1,4 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 2. Emal sənayesi | **18,3** | **20,9** | **41,0** | **78,5** | **78,1** | **77,0** |
| Yeyinti | 1,6 | 7,7 | 28,5 | 65,1 | 65,1 | 62,6 |
| Yüngül | 12,7 | 0,5 | 1,2 | 0,3 | 0,4 | 0,7 |
| Maşınqayırma (təmir) | - | 8,7 | 0,9 | 2,1 | 1,9 | 2,0 |
| Metallurgiya | 3,2 | 0,1 | 0,6 | 0,4 | 1,5 | 0,8 |
| Tikinti materialları | 0,2 | 0,6 | 1,3 | 1,0 | 3,6 | 5,1 |
| Kimya | 0,4 | 1,7 | 5,8 | 6,6 | 3,1 | 3,2 |
| Mebel, ağac emalı, kağız istehsalı | - | 1,5 | 2,6 | 2,8 | 2,4 | 2,5 |
| Digər sahələr | 0,2 | 0,1 | 0,1 | 0,2 | 0,1 | 0,1 |
| 3. Elektrik enerjisi, qaz istehsalı və təchizatı | **81,7** | **63,2** | **46,7** | **17,7** | **14,3** | **16,7** |
| 4. Su təchizatı, tullantıların təmizlənməsi və emalı | | **14,8** | **10,1** | **3,4** | **4,6** | **4,9** |
| Sənaye müəssisələrinin sayı | 23 | 39 | 44 | 52 | 64 | 73 |
| Sənaye-istehsal fondları, mln. man. | 32,3 | 53,2 | 111,7 | - | - | - |
| Sənayedə işçi qüvvəsi, nəfər | 1232 | 1564 | 2002 | 2799 | 2834 | 3099 |

2024-cü ildə iqtisadi rayonda fəaliyyət göstərən 73 müəssisədə 3,0 min nəfərdən çox işçi çalışmış və 105,7 mln. manatlıq sənaye məhsulları istehsal edilmişdir [16]. Onun tərkibində ayrılan sahələrin payı müxtəlif səviyyədədir. Mineral-xammal mənbələrinin hasilatı üzrə məhsul istehsalı aşağı səviyyədədir və 1,5 mln. manatlıq dəyərə malik olmuşdur. Mineral-xammal hasilatı sənayenin strukturunda 1,4% paya malikdir. Bu sahədə məhsul istehsalı İsmayıllı rayonuna aiddir, digər inzibati rayonlarda bu sahədə məhsul istehsalı aparılmamışdır. Ona görə də məhsul istehsalının hamısı İsmayıllıda kərpic istehsalı üçün xammal kimi istifadə edilən gil süxurlarının payına düşür (Cədvəl 2 ).

İqtisadi rayonda sənaye məhsulları istehsalında aparıcı rolu emal sənayesi sahələri oynayır. İqtisadi rayonda emal sənayesi müəssisələrində 2024-cü ildə 81,4 mln. manatlıq məhsul istehsal edilmişdir [16]. Bu sahədə inzibati rayonların rolu müxtəlifdir. Emal sənayesinin məhsul istehsalının 49,6 mln. manatı (61,0%-i) Ağsu rayonunun, 17,3 mln. manatı (21,2%) İsmayıllı rayonunun payına düşür. Şamaxı (10,5 mln. manat) və Qobustan (4,0 mln. manat) rayonlarında emal sənayesi sahələri zəif inkişaf etdiyindən,istehsal edilən məhsulların dəyəri aşağı səviyyədədir [16].

Lakin burada da monostruktur xüsusiyyət özünü aydın şəkildə göstərir. Sənaye məhsulları istehsalında emal sənayesi sahələrinin payı 77,0% təşkil edir (Cədvəl 2). Onun da 62,6%-i yeyinti sənayesi məhsullarının payına düşür. Digər emal sənayesi sahələrinin payı aşağı səviyyədədir. İqtisadi rayona daxil olan inzibati rayonlar üzrə yeyinti sənayesi məhsullarının istehsal həcmi çox fərqlidir. 2024-cü ildə iqtisadi rayonda 66,2 mln. manatlıq yeyinti sənayesi məhsulları istehsal edilmişdir. Onların 45,4 mln. manatı (68,7%-i) Ağsu rayonunun, 11,4 mln. manatı (10,2%) İsmayıllı rayonunun payına düşür [16]. Qobustan və Şamaxı rayonlarında yeyinti sənayesi sahələrində istehsal edilən məhsulların dəyəri aşağı səviyyədədir.

Yeyinti sənayesi məhsullarının istehsalında Ağsu rayonundakı “Vita 1000” Meyvə-Tərəvəz Məhsulları emalı zavodu qabaqcıl yerdədir. 2024-cü ildə müəssisədə 1052,3 min dkl meyvə şirəsi, 4,7 min dkl konyak, 225,7 min dkl araq istehsal edilmişdir (Cədvəl 3). İsmayıllı rayonunda isə bu sahəyə aid müəssisələrdə istehsal edilən məhsulun həcmi belə olmuşdur: 25,7 min dkl spirt, 4,0 min dkl etil spirti, 51,5 dkl şərab, 11,8 min ton bitki yağı .

İqtisadi rayonda emal sənayesi sahələri arasında məhsul istehsalına görə sonrakı yeri tikinti materialları sənayesi sahəsi tutur. 2024-cü ildə iqtisadi rayonda bu sahədə 5359,6 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da sənaye məhsulları istehsalının 5,1%-ni təşkil edir [16]. İnzibati rayonlar arasında bu sahədə məhsul istehsalında qabaqcıl yerdə 2,9 mln. manat dəyəri ilə İsmayıllı rayonu dayanır. Həmin dövr ərzində sonrakı sırada duran Şamaxı rayonunda 1,6 mln. manatlıq (30,1%) tikinti materialları istehsal edilmişdir. Ağsu rayonunun payı isə 15,9% təşkil etmişdir [16].

Yüksək paya malik olan İsmayıllı rayonunda 2024-cü ildə tikinti materialı kimi tikinti kərpici istehsal edilmiş və onun həcmi 52,8 min $m^3$ olmuşdur. Şamaxı rayonu isə qum-çınqıl hasilatı ilə fərqlənir (Cədvəl 3).

Kimya sənayesi Dağlıq Şirvan iqtisadi rayonunda emal sənayesi məhsullarının istehsal dəyərinə görə üçüncü yeri tutur. Kimya sənayesinə daxil olan sahələr üzrə 3,4 mln. manatlıq məhsul istehsal edilmişdir ki, bu da sənaye məhsulu istehsalında onun payının 3,2% olması deməkdir [16]. Şamaxı və İsmayıllı rayonlarının hər birinin kimya sənayesi müəssisələrində 1,4 mln. manat dəyərində məhsul istehsal edilmişdir ( 43,0%-ə qədər pay deməkdir). Regionda kimya sənayesi məhsulları dedikdə əsasən plastik qapı-pəncərə istehsalı başa düşülür (Cədvəl 3).

İqtisadi rayonda mövcud olan sənaye sahələri əsasən daxili tələbatın ödənilməsinə xidmət edir. Onlar arasında meşə və ağac emalı sahələri də vardır. 2024-cü ildə bu sahələrdə 2,8 mln. manatlıq məhsul istehsal edilmiş, sahənin payı 2,5% təşkil etmişdir [16]. Regionda meşə və ağac emalı sahələri üzrə fəaliyyət göstərən müəssisələrin çoxu Ağsu rayonunda yerləşir. Rayonda istehsal edilən meşə və ağac emalı məhsullarının dəyəri 2435,2 min manat təşkil edib. Regionda rayonun bu sahədəki payı 88,3% səviyyəsindədir [16]. Sahə məhsulları sırasında taxta mebelləri liderdir.

Dağlıq Şirvan iqtisadi rayonu XXI əsrin əvvəllərində ölkənin əsas maşınqayırma mərkəzlərindən birinə çevrilsə də, sonradan bu mövqe tədricən itirildi. 2024-cü ildə maşınqayırma sahəsində 2,2 mln. manatlıq məhsul istehsal edilmişdir. Bu sahənin payı sənaye məhsulları istehsalında 2,0%-ə yaxın olmuşdur [16]. İqtisadi rayonda maşınqayırma məhsullarının əsas istehsal mərkəzi Şamaxı rayonudur [6, 8]. Burada 2024-cü ildə 1,6 mln. manatlıq məhsul istehsal edilmişdir. Şamaxı rayonunun regionda payı bu sahə üzrə 74,7% təşkil etmişdir [16].

**Cədvəl 3.**

Sənaye məhsullarının illər üzrə istehsal dinamikası[11-13, 16].

| **Məhsulun adı,istehsal göstəricisi** | **İllər üzrə məhsul istehsalının həcmi** | | | | | |
|---|---|---|---|---|---|---|
| | 2000 | 2010 | 2015 | 2020 | 2023 | 2024 |
| Xalça toxunması, min kv.m | 0,7 | 0,11 | 13,03 | - | - | - |
| Əhəngdaşı, t | - | - | - | 1685,0 | 2330,0 | - |
| Çınqıl, çaydaşı, t | - | - | - | 18628,0 | 5508,0 | - |
| Araq, min dkl | - | - | - | 212,8 | 288,0 | 225,7 |
| Spirt, min dkl | - | - | - | 84,8 | 61,0 | 25,7 |
| Viski brendi, min dkl | - | 5,9[1] | - | 21,9 | 9,3 | 4,7 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Meyvə şirəsi, min dkl | - | - | 501,8 | 948,4 | 1666,0 | 1052,3 |
| Quru meyvə ,t | - | - | - | 12,2 | 8,3 | 7,9 |
| Etil spirti, min dkl | - | - | - | 45,8 | 14,3 | 4,0 |
| Üzüm şərabı, min ton dkl | - | - | - | 94,8 | 53,4 | 51,5 |
| Kərə yağı, t | - | - | - | 51,4 | - | - |
| Plastik qapı-pəncərə, dəst | - | 975 | 6769 | - | - | - |
| Tikinti kərpici, min $m^3$ | - | - | - | - | 45,4 | 52,8 |
| Bitki yağı, ton | - | - | - | 0,4 | 7,8 | 11,8 |
| Dondurma, t | - | - | - | 0,2 | 0.9 | 0,4 |
| Minik avtomobili, ədəd | - | 25[2] | - | - | - | - |
| Məişət kondisioneri,ədəd | - | 2184 | 180 | - | - | - |
| Soyuducu,ədəd | - | 569 | 80 | - | - | - |
| Televizor ,ədəd | - | 8532 | 788 | - | - | - |
| Taxta mebel, dəst | - | - | 112 | 46687 | - | - |
| Elektrik enerjisi, mln.kVt-saat | - | - | - | 8,7 | 8,0 | 8,3 |
| Ayaqqabı, min cüt | - | - | - | 1,4 | 1,2 | 1,5 |

1- 2011, 2 - 2012

İqtisadi rayonda emal sənayesinin digər sahələrinin məhsul istehsalında payı vahiddən aşağıdır. Metallurgiya sənayesinə daxil olan obyektlərdə metal konstruksiyalar istehsal edilir, sahənin payı məhsul istehsalında 0,8% səviyyəsindədir. Məhsullar əsasən Şamaxı və İsmayıllı rayonlarında istehsal olunur.

Yüngül sənaye adətən digər sahələrin inkişafı üçün baza rolunu oynayır, ilkin gəlir əldə etmək üçün potensial formalaşdırır. Bu sahənin inkişafı üçün ölkənin əksər rayonlarında xammal və yarımfabrikatlar mövcuddur. Bu sıraya pambığı, heyvandarlıq məhsulları olan yunu, dərini, neft-kimya sənayesindən alına bilən sintetik xammalları aid etmək olar. Lakin bu imkanlara baxmayaraq sahənin inkişafı üçün regionda görüləsi işlər hələ çoxdur. Yüngül sənaye müəssisələrinin iri və orta şəhərlərdə, həmçinin kiçik şəhər və qəsəbələrdə, hətta iri kəndlərdə də təşkil edilməsi mümkündür. Yüngül sənaye bütövlükdə çoxşaxəli struktura malikdir, əmək tutumludur, bu sahədə qısa vaxtda və kiçik sərmayələr qoymaqla gəlir əldə etmək olur. Bu sahənin istismar potensialı regionlarda kifayət qədərdir [4]. Ona görə də yüngül sənayenin bu xüsusiyyətlərindən istifadə edilməsi vacib vəzifə olaraq qalır. Azərbaycan şəraitində yüngül sənayenin aparıcı sahələrinə parça və xalça toxunması, trikotaj, tikiş, qalanteriya məhsulları istehsalını aid etmək olar.

Buna baxmayaraq Dağlıq Şirvan iqtisadi rayonunda yüngül sənaye məhsulları istehsalı aşağı səviyyədədir. 2024-cü ildə cəmi 765,3 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da yüngül sənayenin ümumi

sənaye məhsulları istehsalında payının 0,7% olması deməkdir [16]. Uzun müddət İsmayıllı rayonunun Lahıc və Basqal qəsəbələrində ipək kəlağayılar, xalça toxunub. Hazırda rayonda ayaqqabı sexi vardır. Şamaxı və Qobustan rayonlarında xalça toxunur [28, 31].

Sənayenin tərkibində ayrılan elektrik enerji istehsalı və təchizatı, qaz təchizatı sahələrində 5,0 mln. manatlıq məhsul istehsal edilmişdir ki, bu da sahənin sənaye məhsulları istehsalında payının 16,7% təşkil etdiyini göstərir [16]. Bu sahələr üzrə İsmayıllı rayonunda çaylar üzərində qurulmuş Su elektrik stansiyaları hesabına 2024-cü ildə 8,3 mln. kVt-saat elektrik enerjisi istehsal edilmişdir (Cədvəl 3). Elektrik enerji istehsalı və təchizatı, qaz təchizatı bütün inzibati rayonlarda aparılır. Bununla yanaşı, sahə üzrə məhsul istehsalının 6,6 mln. manatı (37,3%-i) Şamaxı rayonunun, 6,0 mln. manatı (34,2%) İsmayıllı rayonunun, 4,0 mln. manatı (22,7%) Ağsu rayonunun payına düşür [16].

Su təchizatı və təmizlənməsi, tullantı emalı sahələri də sənaye məhsulları istehsalının formalaşmasında iştirak edir. Lakin inzibati rayonlara daxil olan kəndlərin əksəriyyətində mərkəzləşmiş su təchizatı yoxdur, məişət tullantılarının toplanması əksər hallarda davamlı təşkil edilmir. Ona görə də sahə üzrə məhsul istehsalının dəyəri azdır (5,2 mln. manat), sənaye məhsulları istehsalında payı da (4.9%) aşağı səviyyədədir [16]. Ayrılan bu sahə üzrə regionda məhsul istehsalının 49,0%-i Şamaxı rayonunun payına düşür.

Sənayenin sahələr üzrə sənaye məhsulları istehsalında pay strukturunun dəyişməsinin təhlili göstərir ki, 2000-ci ildən sonrakı dövrdə ayrı-ayrı sahələrin xüsusi çəkisində davamlı olaraq dəyişmələr baş vermişdir. Bu dəyişmələrə yeni istehsal və xidmət obyektlərinin yaradılması ilə yanaşı, mövcud obyektlərin istehsal gücünün azalması və ya tam dayanması səbəb olmuşdur.

Hasilat (mədənçıxarma) sahələrində çayların yataqlarında daş, qum, çınqıl hasilatı aparılır. Son 15 ildə mədənçıxarma sahəsinin sənaye məhsulu strukturunda ən böyük payı 2023-cü ilə təsadüf edir (3 %).

2000-ci ildən sonrakı dövrdə emal sənayesi, elektrik enerjisi istehsalı və təchizatı, qaz təchizatı, su təchizatı və təmizlənməsi, tullantı emalı kimi sahələrin xüsusi çəkisini müəyyən edən göstəricilərin həcmində ciddi dəyişikliklər olmuşdur. Yeni əsrin əvvəlində emal sənayesi sahələrinin zəif inkişafı və sahəyə aid müəssisələr şəbəkəsinin az olması ilə əlaqədar istehsal edilmiş məhsulların dəyəri, onun tərkibindəki ayrı-ayrı sahələrin payı aşağı olmuşdur. 2000-ci ildə emal sənayesi sahələrinin məhsul istehsalında payı 18,3% təşkil etmişdir. Onun da 12,7%-i yüngül sənaye müəssisələrində istehsal edilmişdir (Şamaxı və İsmayıllı rayonlarında xalça toxuculuğu). Elektrik enerjisi istehsalı və təchizatı, qaz, su təchizatı sahələri birlikdə 81,7% pay ilə qabaqcıl yer tutmuşdur [11, 17, 18].

2010-cu ildə Şamaxı rayonunda 2184 məişət kondisioneri, 569 soyuducu, 853 televizor istehsal edilmişdir (Cədvəl 3). Həmin dövrdə regionun emal sənayesi sənaye məhsulları həcmində 20,9% paya malik olmuşdur. Onun tərkibində olan maşınqayırma 8,7% payı ilə fərqlənmişdir. Şəhərdə Avtomobil zavodu aşağı səviyyədə fəaliyyət göstərmişdir. 2012-ci ildə zavodda 25 avtomobil istehsal edilmişdir. 2012-ci ildən sonra Ağsu rayonunda yeyinti sənayesinin inkişafı iqtisadi rayon üzrə bu sahənin payının yüksəlməsinə təsir etmiş, emal sənayesinin payının 41,0%-ə qədər artmasına gətirib çıxarmışdır. Ona görə elektrik enerji istehsalı və təchizatı, qaz təchizatı sahələrinin payı 46,7%-ə qədər, su təchizatı və təmizlənməsi, tullantı emalı sahələrinin payı 10,1%-ə qədər enmişdir [11-16, 17-22] .

2020-ci ildə Ağsu Meyvə-Tərəvəz kombinatının fəaliyyətinin genişlənməsi məhsul istehsalının artırılmasına, emal sənayesinin payının 78,5%-ə, onun tərkibində yeyinti sənayesinin payının 65,1%-ə yüksəlməsinə imkan vermişdir. Lakin bu dövrdə maşınqayırma müəssisələrinin fəaliyyəti zəifləmiş, nəticədə sahə yalnız 2,1% paya malik olmuşdur.

2020-ci ildən sonra keçən vaxt ərzində sənayenin daxilində ayrılan sahələrin payında əsaslı dəyişikliklər baş verməmişdir. Emal sənayesinin tərkibində yeyinti sənayesi aparıcı rolunu saxlamış, bununla yanaşı,sənayenin monostruktur xarakteri qalmaqda davam etmişdir.[15, 16].

Dağlıq Şirvan iqtisadi rayonuna daxil olan inzibati rayonlarda da sənaye monostruktur xarakteri ilə fərqlənir (Cədvəl 4). **Ağsu rayonunda** hasilat sənayesinə aid məhsullar istehsal edilmir. Rayonda sənaye məhsullarının istehsal strukturunu “Vita 1000” Meyvə-Tərəvəz kombinatının fəaliyyəti müəyyən edir. Onun tərkibində emal sənayesinin payı 91,8%, o cümlədən yeyinti sənayesinin payı 84,1% təşkil edir. 2015-ci ildə də emal sənayesinin payı yüksək səviyyədə olmuşdur.

**Cədvəl 4.**

İnzibati rayonlarda sənayenin sahə strukturunun illər üzrə dəyişmə dinamikası, faizlə[11-13, 16].

| İnzibati rayonlar | İllər | Ümumi sənaye istehsalı, %-lə | o cümlədən | | | |
|---|---|---|---|---|---|---|
| | | | mədənçıxarma (hasilat) sahəsinin payı,%-lə | emal sahəsinin payı, %-lə | elektrik enerjisi,qaz istehsalı və təchizatı sahəsinin payı,%-lə | Su təchizatı,tullantı təmizlənməsi və emalı sahəsinin payı,%-lə |
| Ağsu | 2010 | 100,0 | - | 27,7 | 63,2 | 9,1 |
| | 2015 | 100,0 | - | 70,7 | 25,5 | 3,8 |
| | 2024 | 100,0 | - | 91,8 | 7,4 | 0,8 |
| İsmayıllı | 2010 | 100,0 | - | 9,6 | 68,9 | 21,5 |
| | 2015 | 100,0 | 7,1 | 30,4 | 50.2 | 12,3 |
| | 2024 | 100,0 | 5,6 | 65,0 | 22,7 | 6,7 |
| Qobustan | 2010 | 100,0 | - | 7,2 | 72,3 | 20,5 |
| | 2015 | 100,0 | - | 22,1 | 64,3 | 13,6 |
| | 2024 | 100,0 | - | 73,5 | 18,7 | 7,8 |
| Şamaxı | 2010 | 100,0 | 2,2 | 26,4 | 59,1 | 12,3 |
| | 2015 | 100,0 | 1,0 | 18,6 | 65,5 | 14,9 |
| | 2024 | 100,0 | - | 53,5 | 33,6 | 12,9 |

Oxşar vəziyyət **Qobustan rayonunda** da müşahidə edilir. Burada da hasilat sənayesinə aid məhsulların hasilatı aparılmır, emal sənayesinin payı 73,5% təşkil edir, onun tərkibində yeyinti sənayesi 67,8%-lə xüsusi çəkiyə malikdir. Emal sənayesinin payı son illərdə yüksək səviyyəyə qalxmışdır.

**İsmayıllı rayonunda** hasilat sənayesi 5,6% payı ilə fərqlənir, emal sənayesinin payı 65,0% təşkil edir. Burada yeyinti sənayesinin payı 42,8% səviyyəsindədir.

**Şamaxı rayonunda** emal sənayesi ən aşağı xüsusi çəkiyə malikdir (53,5%). Burada elektrik enerji istehsalı və təchizatı, qaz təchizatı sahələrinin payı 33,6% təşkil edir (Cədvəl 4).

Regiona daxil olan inzibati rayonlarda 2015-ci ildən sonra emal sənayesinin payı xeyli artmışdır. Bəzi rayonlarda bu artım hətta 2-3 dəfə təşkil edir. Bununla yanaşı, rayonlarda sənaye bir və ya bir neçə müəssisə ilə təmsil olunur. Regionda ölkə əhəmiyyətli cəmi bir neçə istehsal müəssisəsi fəaliyyət göstərir, əksəriyyəti yerli əhəmiyyətli müəssisələrdir.

## YEKUN NƏTİCƏ

Dağlıq Şirvan regionunun sənaye iqtisadiyyatında sahə və ərazi təşkilinin müasir vəziyyətinin, regionun təbii-iqtisadi və təbii ehtiyat imkanlarının tədqiqi regionla bağlı aşağıdakı yekun nəticəyə gəlməyə imkan verir:

- Dağlıq Şirvan iqtisadi rayonu uzun illər respublikanın təsərrüfat strukturunda kənd təsərrüfatı məhsullarının emalı, xüsusilə şərabçılıq məhsulları istehsalı üzrə ixtisaslaşmış olsa da, müstəqilliyin ilk illərində bu sahələr tənəzzülə uğramış, müəssisələrin əksəriyyətinin fəaliyyəti dayanmışdır. XXI əsrin əvvəllərində regionda bir neçə maşınqayırma zavodu təsis edilsə də, sonradan onlar fəaliyyət göstərməmişlər;
- Dağlıq Şirvan iqtisadi rayonunda bütövlükdə və bura daxil olan inzibati rayonlarda sənaye monostruktur xarakteri ilə səciyyələnir (bir sahə və bura daxil olan müəssisə istehsal edilən məhsulların əsas hissəsini verir). İqtisadi rayonda sənaye məhsulları istehsalının 77,0%-i emal sənayesinin, o cümlədən 62,6%-i yeyinti sənayesinin payına düşür, digər emal sahələrinin payı 5,0%-dən də aşağıdır. Regionda yüngül sənaye, maşınqayırma və tikinti materialları sənayesi üzrə yeni müəssisələrin yaradılması sosial-iqtisadi baxımdan səmərəli olardı;
- Emal sənayesi məhsullarının istehsalında inzibati rayonlar arasında kəskin fərqlər mövcuddur. Bu sahədə əsas yük Ağsu (61,0%) və İsmayıllı rayonlarının payına düşür (21,2%). İqtisadi rayonun digər inzibati

rayonlarında (Şamaxı və Qobustan) bu göstəricilər kiçik rəqəmlərlə ifadə olunur. Şamaxı rayonunda maşınqayırma, yüngül və yeyinti sənayesi, tikinti materialları istehsalı üçün təbii-iqtisadi potensial, əmək ehtiyatları, o cümlədən ixtisaslı kadrlar kifayət qədərdir. Lakin rayonun bu sənaye potensialından istifadə əmsalı çox aşağı səviyyədədir.

Mövcud problemlərin, regiondaxili ərazi və istehsal xüsusiyyətlərinin araşdırılması sənayenin səmərəli ərazi təşkilinə, yerli potensialdan düzgün istifadəyə və təsərrüfat dövriyyəsinə yeni resursların cəlbinə dair aşağıdakı təkliflərin verilməsini zəruri edir:

- İqtisadi rayonda sənayenin strukturunda elektrik enerji istehsalı, qaz, su təchizatı və təmizlənməsi, tullantı emalı sahələrinin payı aşağıdır. Kəndlərdə mərkəzləşmiş su və təbii qaz təchizatı səviyyəsinin yüksəldilməsi, tullantıların yığılması və emalı sahələrinin təşkili sənaye məhsulları istehsalında onların payının artırılmasına şərait yaratmış olar. Regionda axan dağ çaylarının üzərində kiçik Su elektrik stansiyalarının tikilməsi işi davam etdirilməlidir.
- İqtisadi rayonda sənayenin davamlı inkişafı, habelə ölkənin sənaye məhsulları istehsalında regionun payının yüksəldilməsi üçün "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuş əsas hədəflərə (sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi; qeyri-neft sənayesinin ixrac potensialının artırılması; rəqabətqabiliyyətli sənaye istehsalının genişləndirilməsi; elmtutumlu və innovativ istehsalın genişləndirilməsi; ixtisaslı kadrların hazırlanması) hələ də tam çatılmayıb. Bununla bağlı kompleks tədbirlərin həyata keçirilməsi davam etdirilməlidir.

## ƏDƏBİYYAT


1. Allahverdiyev, N.N. Azərbaycan SSR iqtisadi və sosial coğrafiyası / N.N.Allahverdiyev. – Bakı: - 1991. - 272 s.
2. Azərbaycanın əhalisi -2024. – Bakı: DSK, "Narıncı Nəşriyyat evi" MMC, − 2025. − 134 s.
3. Azərbaycanın demoqrafik göstəriciləri - 2024. Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, - 2025, - 640 s.
4. Azərbaycanda yüngül sənayenin ərazi təşkili problemləri. Bakı, - 2017. - 170 s.
5. Azərbaycan Respublikasının coğrafiyası: [3 cilddə] / baş red. akad. R.M.Məmmədov – Bakı: Avropa, – c. 2. – 2015. – 327s.
6. Azərbaycan Respublikasının coğrafiyası: [3 cilddə] / baş red. akad. R.M.Məmmədov – Bakı: Avropa, – c. 3. – 2015. – 400s.
7. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı // "Respublika" qəz. − 2014, 27 dekabr. – s. 3
8. Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi. Bakı. 6 dekabr 2016, - s. 383-433.
9. Azərbaycan Respublikasında milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı. 6 dekabr 2016, - s. 5-114
10. Azərbaycan Respublikasının coğrafiyası: [3 cilddə] / baş red. akad. R.M.Məmmədov – Bakı: Avropa, – c. 1. – 2014. – 530 s.
11. Azərbaycanın sənayesi – 2008. – Bakı: DSK, 9 saylı KM, − 2009 − 579 s.
12. Azərbaycanın sənayesi – 2015. – Bakı: DSK, 9 saylı KM − 2016. − 344 s.
13. Azərbaycanın sənayesi – 2017. – Bakı: DSK, 9 saylı KM − 2018. − 328 s.
14. Azərbaycanın sənayesi – 2018. Bakı: DSK, -2019.- 249 s.
15. Azərbaycanın sənayesi – 2020. Bakı: DSK, -2021. -241 s.
16. Azərbaycanın sənayesi – 2024. – Bakı: DSK, - 2025. -293 s.
17. Azərbaycanın regionları -2004. – Bakı: DSK, "Səda" nəşr. − 2005. − 651 s.
18. Azərbaycanın regionları -2010. – Bakı: DSK, 9 saylı KM − 2011. − 768 s.
19. Azərbaycanın regionları -2012. – Bakı: DSK, − 2013. − 651 s.
20. Azərbaycanın regionları – 2016. Bakı, DSK,- 2017. -804 s.
21. Azərbaycanın regionları – 2021. Bakı, DSK,- 2022. -804 s.,
22. Azərbaycanın regionları - 2023. Bakı, DSK, -2024. -849 s.

23. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Bakı, 02 fevral 2021.
24. Azərbaycanın statistik göstəriciləri -2024. Bakı: DSK, "AZMEGA GROUP" MMC, - 2025.
25. Eminov, Z.N. Azərbaycan Respublikasının sosial-demoqrafik inkişafı və məşğulluq problemləri / Z.N. Eminov. "CN Poliqraf" MMC, Bakı, - 2023. - 451 s.
26. Əfəndiyev, V.Ə. Urbanizasiya və Azərbaycanın şəhər yaşayış məskənləri / V.Ə.Əfəndiyev. Bakı: Bakı Universitetinin nəşriyyatı, - 2002. - 397 s.
27. İmrani, Z.T. Zeynalova K.Z. Azərbaycanda təsərrüfatın ərazi təşkilinin iqtisadi-coğrafi xüsusiyyətləri. Bakı: "Nafta-Press", - 2014. - 232 s.
28. Məmmədov, R.H. Azərbaycan SSR-in respublikadaxili iqtisadi rayonları / R.H.Məmmədov. Bakı: Maarif, - 1989. - 240 s.
29. Naxçıvan Muxtar Respublikasının coğrafiyası.II cild. İqtisadi və sosial coğrafiya. Bakı, - 2019. -380 s.
30. Nuriyev, Ə.X. Regional idarəetmənin əsasları / Ə.X. Nuriyev. Bakı: «Elm», - 2007. - 428 s.
31. Paşayev, N.Ə., Əyyubov N.H., Eminov Z.N. Azərbaycan Respublikasının iqtisadi, sosial və siyasi coğrafiyası. − Bakı: Çıraq, − 2010. − 416 s.
32. Гаджизаде, А.М. Азербайджанский промышленный комплекс / А.М.Гаджизаде. Баку: Азернешр, - 1975. -204 с.
33. Гусейнов, С.К. Эффективность структуры промышленного производства в условиях его интенсификации / С.К. Гусейнов. Баку: Элм. - 1987. − 184 с.
34. Самедзаде, З.А. Структура и эффективность общественного производства / З.А.Самедзаде. Баку: Элм, - 1980. - 210 с.

## ORGANIZATION OF INDUSTRIAL AREAS IN AZERBAIJAN AND PRIORITY DIRECTIONS FOR REGIONAL ECONOMIC DEVELOPMENT

**R.M. Guliyev, M.R. Guliyev**

Industrial enterprises represent a critical sector of the national economy, playing a leading role in the production of material goods. The development level of industrial enterprises is influenced by the natural and geographical conditions of the economic space, the availability of natural resources, and other socio-economic factors. Research indicates that the industrial potential of the Mountainous Shirvan economic region remains relatively low. One of the key factors affecting industrial development in the region is the presence of enterprises for processing agricultural products.

This study explores opportunities to enhance the role of the Mountainous Shirvan economic region in industrial production and to make efficient use of its existing natural and economic resources. The research emphasizes the establishment of new enterprises or the expansion of existing ones for processing products from viticulture, horticulture, and vegetable cultivation. Additionally, the article investigates strategies for ensuring a stable supply of raw materials to agricultural processing enterprises and identifies a set of essential measures that could stimulate industrial growth in the region.

**Keywords:** *planning of industrial areas, economic region, extractive industry, processing industry, industrial potential, industrial enterprises, natural-economic potential, industrial production*

## ОРГАНИЗАЦИЯ ПРОМЫШЛЕННЫХ ТЕРРИТОРИЙ И ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ РЕГИОНАЛЬНОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ В АЗЕРБАЙДЖАНЕ

**Р.М. Гулиев, М.Р. Гулиев**

Промышленность представляет собой одну из ключевых отраслей национальной экономики, играет ведущую роль в производстве материальных благ. Уровень развития про-

мышленного хозяйства определяется комплексом факторов, включая природно-географические условия экономического пространства, обеспеченность природными ресурсами, а также социально-экономические и инфраструктурные особенности региона. Проведѐнные исследования показывают, что промышленный потенциал Даглык-Ширванского экономического района остаѐтся сравнительно низким. Значимым фактором, определяющим перспективы развития промышленности в регионе, является наличие предприятий по переработке сельскохозяйственной продукции и их производственный потенциал.

В настоящей статье анализируются пути повышения роли Даглык-Ширванского экономического района в производстве промышленной продукции посредством рационального использования существующего природно-экономического потенциала. Особое внимание уделяется созданию новых и расширению действующих предприятий по переработке винограда, плодов, бахчевых и овощных культур. Рассматриваются механизмы обеспечения перерабатывающих предприятий необходимым сырьѐм, а также разрабатывается комплекс мероприятий, способных стимулировать устойчивое развитие промышленности и повысить еѐ конкурентоспособность на региональном уровне.

**Ключевые слова:** *организация промышленных территории, экономический район, добывающая промышленность, перерабатывающая промышленность, промышленный потенциал, промышленные предприятия, природно-экономический потенциал, производство промышленной продукции*